# Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi barədə

# Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

I. «Xarici investisiyanın qorunması haqqında» Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992-ci il, № 4, maddə 81, № 7, maddə 171; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997-ci il, № 3, maddə 226; 2001-ci il, № 6, maddə 360, № 11, maddə 683, № 12, maddə 736; 2003-cü il, № 1, maddələr 1, 3; 2005-ci il, № 8, maddə 684) 6-cı maddəsinin 2-ci hissəsində *«Azərbaycan Respublikası Nazirlər Kabinetinin»* sözləri *«müvafiq icra hakimiyyəti orqanının»* sözləri ilə, *«xüsusi icazə»* sözləri *«xüsusi razılıq»* sözləri ilə əvəz edilsin.

II. «Sahibkarlıq fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992-ci il, № 23, maddə 1013; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997-ci il, № 1, maddə 6, № 3, maddə 226, № 4, maddə 280; 2000-ci il, № 7, maddə 489; 2001-ci il, № 11, maddə 686, № 12, maddə 736; 2002-ci il, № 5, maddələr 241, 248; 2003-cü il, № 1, maddələr 1, 16, № 12, (I kitab), maddə 673; 2004-cü il, № 3, maddə 123; 2006-cı il, № 8, maddə 657) 7-ci maddəsinin on dördüncü abzasında *«xüsusi icazə»* sözləri *«xüsusi razılıq»* sözləri ilə əvəz edilsin.

III. «Əmtəə birjası haqqında» Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1994-cü il, № 16, maddə 211; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997-ci il, № 3, maddə 226; 2001-ci il, № 11, maddə 683; 2005-ci il, № 8, maddə 684) 9-cu maddəsinə aşağıdakı dəyişikliklər edilsin:

1. 2-ci və 5-ci bəndlər çıxarılsın;

2. 7-ci bənddə *«Azərbaycan Respublikası Nazirlər Kabinetinin təsdiq etdiyi Əsasnamə ilə»* sözləri *«müvafiq icra hakimiyyəti orqanı tərəfindən»* sözləri ilə əvəz edilsin.

IV. «İnvestisiya fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1995-ci il, № 17-18, maddə 275; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 6, maddə 360, № 11, maddə 683, № 12, maddə 736; 2002-ci il, № 1, maddə 11, № 5, maddə 241; 2003-cü il, № 1, maddə 1; 2004-cü il, № 4, maddə 202) 7-ci maddəsinin 2-ci bəndi aşağıdakı redaksiyada verilsin:

*«Xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növləri ilə məşğul olmaq üçün investisiya fəaliyyətinin iştirakçıları lisenziya almalıdırlar».*

V. «Damazlıq işi haqqında» Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997-ci il, № 1, maddə 24; 2001-ci il, № 12, maddə 736; 2002-ci il, № 5, maddə 241) aşağıdakı dəyişikliklər edilsin:

1. 4-cü maddənin ikinci hissəsində *«göstərilməsi ilə məşğul olmağa xüsusi razılığı (lisenziyası) olan»* sözləri *«göstərən»* sözü ilə əvəz edilsin və üçüncü hissəsi çıxarılsın;

2. 17-ci maddənin beşinci abzası çıxarılsın.

VI. «Standartlaşdırma haqqında» Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997-ci il, № 2, maddə 92; 2001-ci il, № 11, maddə 683; 2004-cü il, № 2, maddə 57, № 10, maddə 761) 6-cı maddəsinin 5-ci bəndinin ikinci abzasında *«xüsusi razılıq (lisenziya)»* sözləri *«müvafiq icazə»* sözləri ilə əvəz edilsin.

VII. «Yanğın təhlükəsizliyi haqqında» Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997-ci il, № 5, maddə 415; 2001-ci il, № 12, maddə 736; 2002-ci il, № 5, maddələr 235, 237, № 12, maddə 706; 2004-cü il, № 4, maddə 202, № 6, maddə 396, № 10, maddələr 761, 779) 21-ci maddəsinin ikinci hissəsində *«orqanının razılığı»* sözləri *«orqanı tərəfindən verilən xüsusi razılıq (lisenziya)»* sözləri ilə əvəz edilsin.

VIII. Azərbaycan Respublikasının Gömrük Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997-ci il, № 6, maddə 447; 1999-cu il, № 10, maddə 570; 2000-ci il, № 12, maddə 835; 2001-ci il, № 11, maddələr 676, 686, 695, № 12, maddə 736; 2002-ci il, № 1, maddə 4, № 8, maddə 463; 2003-cü il, № 1, maddələr 3, 16, 23; 2004-cü il, № 2, maddə 57, № 3, maddə 133, № 6, maddə 400, № 7, maddə 505; 2005-ci il, № 4, maddə 277, № 10, maddə 876, № 11, maddə 994) aşağıdakı dəyişikliklər və əlavələr edilsin:

1. 53-cü maddənin adında, 1-ci və 2-ci hissələrində *«lisenziya»* sözü *«icazə»* sözü ilə əvəz edilsin, 3-cü hissə çıxarılsın;

2. 54-cü maddənin 3-cü abzasında *«rüsumsuz ticarət mağazası təsis etmək üçün verilən lisenziyanın şərtlərinə riayət etmək və»* sözləri çıxarılsın;

3. 56-cı maddədə ismin müvafiq hallarında *«lisenziya»* sözü ismin müvafiq hallarında *«icazə»* sözü ilə əvəz edilsin;

4. 59-cu maddənin adında və mətnində ismin müvafiq hallarında *«lisenziya»* sözü ismin müvafiq hallarında *«icazə»* sözü ilə əvəz edilsin;

5. 89-cu maddənin adında və mətnində ismin müvafiq hallarında *«lisenziya»* sözü ismin müvafiq hallarında *«icazə»* sözü ilə əvəz edilsin;

6. 93-cü maddədə və 95-ci maddənin 1-ci hissəsində *«lisenziya»* sözü *«icazə»* sözü ilə əvəz edilsin;

7. 162-ci maddənin birinci hissəsində *«lisenziya»* sözü *«icazə»* sözü ilə əvəz edilsin;

8. 163-cü maddənin adında və mətnində ismin müvafiq hallarında *«lisenziya»* sözü ismin müvafiq hallarında *«icazə»* sözü ilə əvəz edilsin.

IX. Azərbaycan Respublikasının Su Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998-ci il, № 3, maddə 135; 1999-cu il, № 8, maddə 476; 2002-ci il, № 5, maddə 237; 2003-cü il, № 1, maddə 10; 2004-cü il, № 2, maddə 57; 2006-cı il, № 11, maddə 923; Azərbaycan Respublikasının 2007-ci il 17 aprel tarixli, 314-IIIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1. 34-cü maddənin birinci hissəsinin ikinci cümləsində *«xüsusi razılıq»* sözləri *«icazə»* sözü ilə əvəz edilsin, *«növləri»* sözündən sonra *«və icazənin verilməsi qaydaları»* sözləri əlavə edilsin;

2. 18-ci maddənin səkkizinci abzasında, 33-cü maddənin yeddinci hissəsində, 38-ci, 40-cı və 50-ci maddələrin birinci hissələrində, 82-ci maddənin dördüncü hissəsində və 103-cü maddənin beşinci abzasında *«xüsusi razılıq»* sözləri *«icazə»* sözü ilə əvəz edilsin.

X. «Yerin təki haqqında» Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998-ci il, № 4, maddə 224; 1999-cu il, № 8, maddə 476; 2001-ci il, № 11, maddələr 673, 696, № 12, maddə 736; 2004-cü il, № 7, maddə 505) aşağıdakı dəyişikliklər edilsin:

1. 8-ci maddənin ikinci hissəsində *«xüsusi razılıq»* sözlərindən sonra *«və ya icazə»* sözləri əlavə edilsin;

2. 9-cu maddənin birinci hissəsinin ikinci-dördüncü və yeddinci abzaslarında, ikinci hissəsində və üçüncü hissəsinin on üçüncü abzasında ismin müvafiq hallarında *«xüsusi razılıq»* sözlərindən sonra ismin müvafiq hallarında *«və ya icazə»* sözləri əlavə edilsin;

3. 10-cu maddənin dördüncü hissəsində *«Xüsusi razılığa uyğun olaraq geoloji»* sözləri *«Geoloji»* sözü ilə əvəz edilsin;

4. 13-cü maddənin birinci, üçüncü, altıncı və səkkizinci hissələrində *«xüsusi razılıq»* sözlərindən sonra *«və ya icazə»* sözləri, dördüncü hissəsində *«xüsusi razılığa»* sözlərindən sonra *«və ya icazəyə»* sözləri əlavə edilsin və beşinci hissəsi çıxarılsın;

5. 18-ci maddənin birinci hissəsinin 1-3-cü bəndlərində, ikinci hissənin birinci abzasında, 2-ci və 7-ci bəndlərində *«xüsusi razılıq»* sözlərindən sonra *«və ya icazə»* sözləri, ikinci hissəsinin 5-ci bəndində *«xüsusi razılıqda»* sözlərindən sonra *«icazədə»* sözü əlavə edilsin.

6. 12-ci maddənin altıncı hissəsində, 14-cü maddənin adında, birinci hissəsində, ikinci hissəsinin birinci, dördüncü və altıncı abzaslarında, 15-ci maddənin üçüncü abzasında, 19-cu maddənin birinci, ikinci və yeddinci hissələrində, 20-ci maddənin ikinci-altıncı hissələrində, 24-cü maddənin birinci hissəsində, 25-ci, 35-ci, 43-cü və 45-ci maddələrin ikinci hissələrində, 46-cı maddənin on üçüncü abzasında ismin müvafiq hallarında *«xüsusi razılıq»* sözlərindən sonra ismin müvafiq hallarında *«və ya icazə»* sözləri əlavə edilsin.

XI. «Balıqçılıq haqqında» Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998-ci il, № 6, maddə 362; 2002-ci il, № 5, maddə 241; 2004-cü il, № 2, maddə 57) 14-cü maddəsinin ikinci hissəsindən *«xüsusi»* sözü çıxarılsın.

XII. «İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında» Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998-ci il, № 6, maddə 364; 2005-ci il, № 6, maddə 466; 2006-cı il, № 12, maddə 1005) 7-ci maddəsinin dördüncü hissəsi çıxarılsın.

XIII. «Memarlıq fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998-ci il, № 6, maddə 374; 2002-ci il, № 12, maddə 709) 5-ci maddəsinə aşağıdakı dəyişikliklər edilsin:

1. ikinci hissədə *«xüsusi icazə əsasında»* sözləri çıxarılsın;

2. üçüncü hissədən *«bu fəaliyyətə xüsusi icazəsi olan»* sözləri çıxarılsın;

3. dördüncü hissədən *«memarlıq fəaliyyətinə xüsusi icazə verilməsi və ona nəzarət»* sözləri çıxarılsın;

4. beşinci hissədən *«xüsusi icazəsi olan»* sözləri çıxarılsın.

XIV. «Geodeziya və kartoqrafiya haqqında» Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998-ci il, № 7, maddə 443; 2004-cü il, № 1, maddə 6, № 2, maddə 57; 2006-cı il, № 2, maddə 64) 13-cü maddəsinin ikinci hissəsi aşağıdakı redaksiyada verilsin:

*«Kartoqrafiya fəaliyyəti xüsusi razılıq (lisenziya) əsasında həyata keçirilir».*

XV. «Hidrometeorologiya fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998-ci il, № 8, maddə 482) 11-ci maddəsinin ikinci hissəsi çıxarılsın.

XVI. «Kinematoqrafiya haqqında» Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998-ci il, № 8, maddə 489; 2001-ci il, № 12, maddə 736; 2005-ci il, № 8, maddə 684) 6-cı maddəsindən *«və kinematoqrafiya fəaliyyətinə xüsusi icazə verilməsi»* sözləri çıxarılsın.

XVII. «Qiymətləndirmə fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998-ci il, № 9, maddə 562; 2002-ci il, № 5, maddə 241) aşağıdakı dəyişikliklər edilsin:

1. 9-cu maddənin birinci hissəsindən *«xüsusi razılıq almış»* sözləri çıxarılsın;

2. 10-cu maddənin beşinci abzasından *«qiymətləndirmə fəaliyyəti ilə məşğul olmaq hüququ verən sənədləri təqdim etmək»* sözləri çıxarılsın.

XVIII. «İstehsalat və məişət tullantıları haqqında» Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998-ci il, № 10, maddə 606; 2002-ci il, № 4, (I kitab), maddə 165) 8-ci maddəsinin 1-ci hissəsinin üçüncü abzasının əvvəlinə *«qanunvericiliklə nəzərdə tutulmuş hallarda»* sözləri əlavə edilsin.

XIX. «Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında» Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu il, № 3, maddə 157; 2006-cı il, № 6, maddə 478) 20-ci maddəsinin ikinci hissəsi çıxarılsın.

XX. «Kiçik sahibkarlığa dövlət köməyi haqqında» Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu il, № 8, maddə 469; 2001-ci il, № 12, maddə 736; 2002-ci il, № 12, maddə 709; 2003-cü il, № 12, (I kitab), maddə 672) 6-cı maddəsinin yeddinci abzasından *«fəaliyyətinin lisenziyalaşdırılmasının və»* sözləri çıxarılsın.

XXI. «Heyvanlar aləmi haqqında» Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu il, № 8, maddə 470; 2004-cü il, № 2, maddə 57, № 7, maddə 505, № 11, maddə 902) 14-cü maddəsinin ikinci hissəsindən *«xüsusi»* sözü çıxarılsın.

XXII. «Şəhərsalmanın əsasları haqqında» Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu il, № 8, maddə 473; 2001-ci il, № 11, maddə 676; 2002-ci il, № 5, maddə 241) 16-cı maddəsində *«bu fəaliyyətə xüsusi icazəsi olan»* sözləri *«xüsusi razılıq (lisenziya) əsasında»* sözləri ilə əvəz edilsin.

XXIII. «Əmək miqrasiyası haqqında» Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, № 1, maddə 3) aşağıdakı dəyişikliklər edilsin:

1. 5-ci maddənin birinci-üçüncü hissələrində və 15-ci maddənin birinci hissəsində *«xüsusi razılıq»* sözləri *«icazə»* sözü ilə əvəz edilsin;

2. 16-cı maddənin birinci hissəsində və 17-ci maddədə *«xüsusi razılığın»* sözləri *«icazənin»* sözü ilə əvəz edilsin.

XXIV. «Texniki təhlükəsizlik haqqında» Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, № 2, maddə 81; 2005-ci il, № 4, maddə 278) 14-cü maddəsinin 2-ci bəndindən *«bu ekspertizanı aparmağa xüsusi razılığı olan təşkilat tərəfindən»* sözləri çıxarılsın.

XXV. «Avtomobil yolları haqqında» Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, № 3, (I kitab), maddə 125; 2001-ci il, № 12, maddələr 731, 736; 2004-cü il, № 11, maddə 901; 2006-cı il, № 6, maddə 478) 21-ci maddəsinin birinci hissəsindən *«qüvvədə olan qanunvericilik aktlarının tələblərinə uyğun olaraq xüsusi razılıq sistemi tətbiq edilir,»* sözləri çıxarılsın.

XXVI. «Özəl tibb fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, № 3, (I kitab), maddə 129; 2001-ci il, № 3, maddə 144; 2002-ci il, № 5, maddə 240; 2004-cü il, № 6, maddə 396) 17-ci maddəsinin ikinci hissəsi çıxarılsın.

XXVII. «Nəşriyyat işi haqqında» Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, № 8, (I kitab), maddə 581; 2002-ci il, № 12, maddə 709; 2004-cü il, № 7, maddə 505) 18-ci maddəsinin birinci hissəsinin ikinci abzasından *«xüsusi razılığın nömrəsi və verilmə tarixi»* sözləri çıxarılsın.

XXVIII. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, № 8, (I kitab), maddə 584; 2001-ci il, № 1, maddə 24, № 3, maddə 139, № 7, maddə 455, № 11, maddələr 680, 698, № 12, maddə 731; 2002-ci il, № 1, maddə 9, № 4, (I kitab), maddə 165, № 5, maddələr 234, 237, 239, № 6, maddə 326, № 8, maddə 463, № 12, maddə 692; 2003-cü il, № 1, maddələr 3, 13, 23, № 4, maddələr 177, 178, № 5, maddə 228, № 6, maddələr 257, 276, 279, 8, maddələr 407, 425, № 12, (I kitab), maddələr 676, 696, II kitab, maddələr 713, 714; 2004-cü il, № 1, maddələr 6, 7, 10, 13, № 4, maddələr 200, 201, 204, № 5, maddələr 313, 314, 317, 321, № 6, maddə 397, № 8, maddələr 596, 597, № 10, maddələr 762, 779, № 11, maddə 900, № 12, maddə 973; 2005-ci il, № 1, maddələr 5, 6, № 2, maddə 61, № 4, maddələr 272, 273, 275, 278, № 6, maddələr 462, 466, № 7, maddə 576, № 8, maddələr 691, 692, № 10, maddələr 875, 877, 904, № 11, maddələr 993, 994, 995, № 12, maddələr 1083, 1085; 2006-cı il, № 2, maddələr 64, 68, № 3, maddələr 219, 220, 223, 225, № 5, maddə 385, № 6, maddə 478, № 11, maddələr 923, 924, 932, № 12, maddələr 1005, 1020, 1024; 2007-ci il, № 1, maddələr 3, 4, № 2, maddələr 65, 68; Azərbaycan Respublikasının 2007-ci il 1 fevral tarixli, 236-IIIQD nömrəli, 27 fevral tarixli, 251-IIIQD nömrəli, 6 mart tarixli, 260-IIIQD, 17 aprel tarixli, 313-IIIQD, 317-IIIQD, 320-IIIQD nömrəli, 1 may tarixli, 322-IIIQD nömrəli və 31 may tarixli, 357-IIIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1. 71-ci maddənin:

1.1. adında *«xüsusi razılıq (lisenziya)»* sözlərindən sonra *«və ya icazə»* sözləri əlavə edilsin;

1.2. birinci abzasında *«xüsusi razılıq (lisenziya)»* sözlərindən sonra *«və ya icazə»* sözləri əlavə edilsin və *«lisenziyada»* sözü *«həmin sənəddə»* sözləri ilə əvəz edilsin;

2. 85.0.10-cu maddədə *«xüsusi razılıq»* sözlərindən sonra *«və ya icazə»* sözləri əlavə edilsin;

3. 101.1.3-cü maddədə *«xüsusi razılıq (lisenziya)»* sözlərindən sonra *«və ya icazə»* sözləri əlavə edilsin;

4. 119.0.5-ci və 242-ci maddələr çıxarılsın;

5. 280-ci maddədən *«malların emalına lisenziya verilməsi»* sözləri *«icazə olmadan malın emal edilməsi»* sözləri ilə əvəz edilsin.

XXIX. «Bələdiyyələrin su təsərrüfatı haqqında» Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 8, maddə 519; 2005-ci il, № 4, maddə 271) aşağıdakı dəyişikliklər edilsin:

1. 11.1-ci maddədə *«xüsusi razılıq alınmadan»* sözləri *«bələdiyyələrə məlumat verməklə»* sözləri ilə əvəz edilsin;

2. 14-cü maddənin adında və mətnində ismin müvafiq hallarında *«xüsusi razılıq»* sözləri ismin müvafiq hallarında *«icazə»* sözü ilə əvəz edilsin.

XXX. «Məşğulluq haqqında» Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 8, maddə 522, № 12, maddə 731;

2003-cü il, № 1, maddə 16) 14-cü maddəsində *«İşədüzəltmədə»* sözü *«Azərbaycan Respublikası vətəndaşlarının xarici ölkələrdə işə düzəlmələrində»* sözləri ilə əvəz edilsin.

XXXI. «Tütün və tütün məmulatı haqqında» Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 9, maddə 568; 2002-ci il, № 5, maddə 240; 2003-cü il, № 1, maddə 6; Azərbaycan Respublikasının 2007-ci il 1 fevral tarixli, 236-IIIQD nömrəli Qanunu) 4.0.5-ci və 14.3.1-ci maddələrində *«xüsusi icazə»* və *«xüsusi icazəsi»* sözləri müvafiq olaraq *«xüsusi razılıq (lisenziya)»* və *«xüsusi razılığı (lisenziyası)»* sözləri ilə əvəz edilsin.

XXXII. «Narkoloji xidmət və nəzarət haqqında» Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 9, maddə 577; 2002-ci il, № 5, maddə 240; 2003-cü il, № 12, (I kitab), maddə 697) aşağıdakı dəyişiklik və əlavə edilsin:

1. 14.2-ci maddənin ikinci cümləsi çıxarılsın;

2. 14.3-cü maddənin birinci və ikinci cümlələrində *«razılığın»* sözündən əvvəl *«xüsusi»* sözü əlavə edilsin.

XXXIII. «Üzümçülük və şərabçılıq haqqında» Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, № 1, maddə 3; 2003-cü il, № 1, maddə 15, № 12, (I kitab), maddə 674; 2005-ci il, № 4, maddə 278; Azərbaycan Respublikasının 2007-ci il 1 fevral tarixli, 236-IIIQD nömrəli Qanunu) 5.0.4-cü, 10.2-ci, 22.2.1-ci və 26.1-ci maddələrində *«xüsusi icazə»* sözləri *«xüsusi razılıq (lisenziya)»* sözləri ilə əvəz edilsin.

XXXIV. «Azərbaycan Respublikasının Milli Bankı haqqında» Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 12, maddə 984) 47.1-ci maddəsində *«xüsusi icazələrin»* sözləri *«xüsusi razılıqların»* sözləri ilə əvəz edilsin.

XXXV. «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında» Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, № 8, maddə 695) aşağıdakı əlavə və dəyişikliklər edilsin:

1. 6-cı maddənin adında, 6.1-6.3-cü və 17-ci maddələrdə ismin müvafiq hallarında *«lisenziya»* sözündən əvvəl *«icazə və ya»* sözləri əlavə edilsin;

2. 13-cü maddədən *«bu növ fəaliyyət üçün lisenziya (xüsusi razılıq)»* sözləri *«icazə»* sözü ilə əvəz edilsin;

3. 18.1-ci maddədə *«dövriyyəsi ilə bağlı fəaliyyət növünə lisenziya (xüsusi razılıq)»* sözləri *«dövriyyəsinə icazə»* sözləri ilə əvəz edilsin;

4. 18.2-ci maddədə *«lisenziya (xüsusi razılıq)»* sözləri *«icazə»* sözü ilə əvəz edilsin.

XXXVI. «Sahibkarlıq fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi barədə» Azərbaycan Respublikası Milli Məclisinin 1992-ci il 15

dekabr tarixli, 406 nömrəli Qərarının (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992-ci il, № 23, maddə 1014) 2-ci bəndinin dördüncü abzası və 3-cü bəndi çıxarılsın.

XXXVII. Azərbaycan Respublikası Milli Məclisinin 1995-ci il 19 sentyabr tarixli, 1115 nömrəli Qərarı (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1995-ci il, № 19, maddə 327; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997-ci il, № 3, maddə 226; 2004-cü il, № 6, maddə 397; 2005-ci il, № 8, maddə 684) ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında Əsasnamə»nin 19-cu bəndinin ikinci abzasından *«və lisenziyaların verilməsindən»* sözləri çıxarılsın.

XXXVIII. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

***Azərbaycan Respublikasının Prezidenti***

***İlham ƏLİYEV***

***Bakı şəhəri, 9 oktyabr 2007-ci il***

***№ 429-IIIQD***

***«Azərbaycan» qəzetində dərc edilmişdir (2 noyabr 2007-ci il, № 246) ( «VneshExpertService» LLC).***

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir (31 oktyabr 2007-ci il, № 10 (124), maddə 938) («VneshExpertService» LLC).***

© *VneshExpertService LLC*